*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır    22 iyun 2019-cu il    № 48 (2365)    Qiyməti 30 qəpik


## Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi qulluqçularının aylıq pul təminatının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının artırılması haqqında

### Azərbaycan Respublikası Prezidentinin

# Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Müdafiə Nazirliyinin dövlət büdcəsindən maliyyələşdirilən qurumlarının hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin sosial müdafiəsini gücləndirmək məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi qulluqçularının (müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları istisna olmaqla) aylıq pul təminatı vəzifə maaşlarının orta hesabla 40 faizi həcmində artırılsın.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Sərəncama uyğunlaşdırılmasına dair təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Sərəncama uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.3. Azərbaycan Respublikası Maliyyə Nazirliyinin təklifləri əsasında Azərbaycan Respublikası Müdafiə Nazirliyinin dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının artımı ilə bağlı təkliflərini beş gün müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.4. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Sərəncama uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.5. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu Sərəncama uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

4. Bu Sərəncam 2019-cu il sentyabrın 1-dən qüvvəyə minir.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 18 iyun 2019-cu il.

*Azərbaycan Ordusu - 101*

# "Azərbaycan Ordusu qarşıya qoyulan bütün tapşırıqları yerinə yetirməyə qadirdir"



*Azərbaycan Ordusu qarşıya qoyulan bütün tapşırıqları yerinə yetirməyə qadirdir. Bu fikri iyunun 18-də Müdafiə naziri general-polkovnik Zakir Həsənov mətbuat nümayəndələri ilə görüşdə bildirib. Bu əminlik ordunun gücünün, qüdrətinin dövlətə, dövlətçiliyə sədaqətinin əminliyidir.*

1918-ci il iyunun 26-da Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının qərarı ilə Əlahiddə Azərbaycan korpusu yaradıldı. Bu qərar ilk demokratik hökumətin ordusunu yaratmasına hüquqi əsas verdi.

Həmin il mayın 28-də qəbul edilmiş "İstiqlal bəyannaməsi"ndə qeyd edilirdi ki, Azərbaycan özünü xarici müdaxilələrdən müdafiə etmək, daxili düşmən qüvvələrini zərərsizləşdirmək üçün nizami orduya malik olmalı, özünün silahlı qüvvələrini yaratmalıdır.

Azərbaycan Demokratik Respublikası ilhaq edildikdən sonra hərbi nazirlik ləğv olundu, ordu quruculuğu prosesi müəyyən bir zaman kəsiyində yarımçıq qaldı.

**(Ardı 4-cü səhifədə)**

# "Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Silahlı Qüvvələrində əsaslı islahatlar aparılır"

*İyunun 18-də Azərbaycanın Müdafiə naziri general-polkovnik Zakir Həsənov mətbuat nümayəndələri ilə görüşüb və onları maraqlandıran sualları cavablandırıb. AZƏRTAC xəbər verir ki, nazir görüşün Azərbaycan Ordusunun ildönümü ərəfəsində keçirildiyini və ənənə halını aldığını deyib.*




Zakir Həsənov qeyd edib ki, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə orduda həyata keçirilən islahatlar uğurla davam edir. 2013-cü ildən başlayaraq isə Azərbaycan Silahlı Qüvvələrində Prezident İlham Əliyevin rəhbərliyi ilə əsaslı islahatlar həyata keçirilir. Ordumuz bütün əsas istiqamətlərdə inkişaf edir və bununla bağlı sübutlar var. Bunu beynəlxalq qurumlar da yüksək qiymətləndirir. Bizim üçün əsas odur ki, xalqımız, Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev buna yüksək qiymət verir. İslahatların əsas istiqamətləri ordunun yeni müasir silah, texnika, avadanlıqla təmin etmək, infrastrukturu yeniləmək, döyüş qabiliyyətini artırmaq, sosial bazanı gücləndirməkdir.

Ötən illər ərzində Azərbaycan Ordusuna müasir silahların alındığını və bununla bağlı ictimaiyyətin daim məlumatlandırıldığını vurğulayan nazir deyib: "2018-ci ildə Silahlı Qüvvələrin 100 illiyi ilə əlaqədar keçirilən möhtəşəm paradda nümayiş olunan silah və texnikanın 90 faizi yeni və müasir idi. Təbii ki, paradda bütün silahlar nümayiş olunmadı.

Ali Baş Komandanın tələbi ilə həyata keçirilən islahatlar nəticəsində bizim hərbi şəhərciklər müasir səviyyədə qurulub. Bu gün Azərbaycan Ordusunun hərbi şəhərciklərinin 85 faizi yenidən qurulub, tikilib. 2018-ci ildə beş yeni böyük, müasir hərbi şəhərcik istifadəyə verilib. Bu il isə 9 hərbi şəhərciyin istifadəyə verilməsi nəzərdə tutulur. Yaxın günlərdə 3 böyük hərbi şəhərciyin açılışı olacaq. Siz görəcəksiniz ki, Ali Baş Komandanın rəhbərliyi ilə Azərbaycan Ordusunda nə qədər böyük işlər həyata keçirilib".

Ordunun döyüş qabiliyyətinin artırılması istiqamətində də genişmiqyaslı işlərin görüldüyünü deyən general-polkovnik Zakir Həsənov bildirib: "Bilirsiniz ki, döyüş hazırlığının əsas hissəsi şəxsi heyətin, hissə və birləşmələrin səhra bacarığının artırılmasıdır. Biz tez-tez irimiqyaslı təlimlər keçiririk, müasir təlim mərkəzləri qurmuşuq. Təlimlər döyüş vəziyyətinə maksimum yaxın şəraitdə, gecə və gündüz, ilin bütün fəsillərində keçirilir. Biz gündən-günə daha böyük hissə və birləşmələri bu təlimlərə cəlb edirik.

Bir neçə il əvvəl Azərbaycan Ordusu işğal altındakı ərazilərimizdə yerləşən düşmən ordusunun birləşmələrinə böyük zərbə vurdu. 2016-cı ildəki əməliyyatların əsas nəticəsi o oldu ki, Azərbaycan Ordusunun kiçik bir hissəsi 3-4 gün ərzində Ermənistan ordusunu darmadağın etdi. Nəticədə ermənilər məcbur olub atəşkəs üçün müraciət etdilər".

Müdafiə nazirinin sözlərinə görə, ordumuzda islahatların əsas istiqamətləri yekunlaşır. Azərbaycan ordusunu yeni silahlarla tam şəkildə təmin edib. 2019-cu ildə əsas istiqamətlərdən biri ordunun idarə olunmasının təkmilləşdirilməsidir. Burada əsas vəzifə bütün hissə və birləşmələrin fasiləsiz, məxfi, operativ şəkildə idarə olunmasıdır. İndi bütün dünyada bu məsələyə çox ciddi fikir verilir. Ən müasir texnika bu işlərə cəlb edilir, müasir komanda-idarəetmə sistemi qurulur. Biz artıq hərbi hissələrimizi onlayn qaydada idarə edirik. Biz tabora qədər onlayn idarəetmə tətbiqinə nail olmuşuq. Ali Baş Komandan bu məsələlərə çox ciddi fikir verir və biz tezliklə bu məsələni də həll edəcəyik. Azərbaycan Ordusu aparıcı dövlətlərin təcrübəsindən və texnikalarından istifadə edərək bu məsələni böyük dərəcədə təmin edib. Kibertəhlükəsizlik və radioelektron mübarizə sahəsi də daim diqqətdə saxlanılır. Aparıcı dövlətlərin təcrübəsindən və texnikalarından istifadə olunaraq bu məsələ də həllini tapıb.

Nazir xüsusi qeyd edib ki, Azərbaycan Ordusunun döyüş qabiliyyətinin, hazırlığının, təcrübəsinin artırılmasında Türkiyə Silahlı Qüvvələrinin rolu böyükdür. Türkiyə Silahlı Qüvvələri dünyanın aparıcı ordularından biridir. Qardaş ölkənin ordusu yüksək döyüş qabiliyyətinə malikdir. Biz Türkiyə ordusunun təcrübəsindən bəhrələnirik və 2013-cü ildən başlayaraq birgə təlimlərə başlamışıq. Hər il bu təlimlərin sayını artırırıq. Əgər 2018-ci ildə planda 7 təlim var idisə, 2019-cu ildə bu təlimlərin sayını 13-ə çatdırmışıq. Təlimlər bütün qoşun növlərini əhatə edir. Hər iki ölkənin mütəxəssisləri birgə təlimlər keçir, qərargahların fəaliyyəti uzlaşır, komandirlər birgə qarşılıqlı əlaqədə müasir döyüşün təşkilini öyrənir. Gələcək fəaliyyətimizdə bunlardan istifadə edəcəyik.

General-polkovnik Zakir Həsənov qeyd edib ki, Azərbaycan Hərbi Hava Qüvvələrinin (HHQ) texnika parkının yenilənməsi istiqamətində də işlər aparılır. HHQ-nin təyyarə və helikopterləri modernləşdirilib, uzaq mənzilə və yüksək dəqiqliyə malik silahlarla təchiz olunub. Azərbaycan Ordusu helikopter parkını da tam yeniləyib. Bizim istifadəmizdə ən müasir Mi-35M, Mi-24, Mi-17 helikopterləri mövcuddur. Bu helikopterlər dünyanın aparıcı dövlətləri tərəfindən təkmilləşdirilib və yeni silahlarla təchiz olunub. Onlar indi uzaq məsafədən hədəfi dəqiqliklə vura bilir.

Ermənistanın Rusiya ilə Su-30SM təyyarələrinin alınmasına dair imzaladığı müqaviləyə münasibət bildirən general-polkovnik Zakir Həsənov qeyd edib ki, ekspertlər bu təyyarələri müsbət qiymətləndirmirlər. Bu təyyarələr bizim müharibə teatrımıza uyğun deyil.

Müdafiə naziri qeyd edib ki, Azərbaycan Hərbi Dəniz Qüvvələrinin gücləndirilməsi istiqamətində işlər gedir, danışıqlar aparılır, texniki məsələlər həll olunur. Bu istiqamətdə bir neçə layihə var. Bu yaxınlarda layihələrə başlanması ilə bağlı məlumat veriləcək. Biz Xəzər dənizinin Azərbaycana aid hissəsinə gecə-gündüz, fasiləsiz tam nəzarət edirik. Xəzər dənizində dost ölkələrlə sərhədik və heç bir təhlükə görmürük.

Nazir gəncləri sosial şəbəkələrdə diqqətli olmağa, təxribatlara uymamağa çağıraraq deyib: "Vətən, millət, dövlətçilik məsələlərində bütün şəxsi mövqelər kənarda durmalıdır. Biz hamımız bir olmalıyıq. Bəzən sosial şəbəkələrdə Azərbaycan adı altında əsassız məlumatlar paylaşılır. Ermənilərin məqsədi dövlətçiliyimizə və ordumuza qarşı saxta məlumatlar yaymaqdır. Sosial şəbəkələrdə belə məlumatları yayanların 90 faizi ermənilər, digərləri isə öz şəxsi mövqelərindən çıxış edən cılız insanlardır. Vətən, millət, dövlət məsələsində bütün maraqlar kənara qoyulmalıdır. Biz hamımız bir olmalıyıq".

Ermənistanın müdafiə naziri David Tonoyanın hərbi qulluqçumuz əsgər Elşən Xəlilovun vurulmasına şəxsən əmr verməsi ilə bağlı dediyi fikrə münasibət bildirən general-polkovnik Zakir Həsənov vurğulayıb: "Deyə bilərəm ki, Ermənistanın müdafiə naziri David Tonoyan yalan danışır. O özünü reklam edir. Son hadisələr zamanı biz ermənilərə layiqli cavab vermişik. Bir müddət sonra onlar öz itkilərini bir-bir üzə çıxaracaqlar. Xalqımız Ali Baş Komandanın rəhbərliyi ilə Azərbaycan Ordusundan qələbələr gözləyir. 2016-cı ildə üç gün ərzində Azərbaycan Ordusunun kiçik bir hissəsi bütün Ermənistan ordusunu darmadağın etdi. Azərbaycan Ordusu bu qələbəni hər dəqiqə nümayiş etdirməyə hazırdır".

Mayın 30-da səhər saatlarında cəbhənin Ağdam rayonu istiqamətində düşmən tərəfindən açılan snayper atəşindən Azərbaycan Ordusunun hərbi qulluqçusu mayor Omarov Aqil Akif oğlunun şəhid olmasına münasibət bildirən nazir qeyd edib: "Hər bir şəhidimiz bizim üçün əzizdir. Əsgər, zabit, nazir daxil olmaqla, biz hamımız Vətən, millət naminə cəbhədə öz həyatımızı təhlükə qarşısında qoyuruq və bununla qürur duyuruq. Bu günlərdə Azərbaycanın hərbi qulluqçusu mayor şəhid oldu. Bəziləri deyir ki, mayor orada nə edib?! Şəhid mayor orada mənim əmrimi yerinə yetirirdi. Ərazidə döyüş hazırlığı ilə məşğul olurdu. Ön xətdə olan şəxsi heyətimiz gecə-gündüz döyüş hazırlığı ilə məşğuldur. Onlar taktiki, atəş, ideoloji hazırlıq, istehkam hazırlığı ilə məşğul olurlar. Həmin vaxt tabor komandiri orada döyüş hazırlığı ilə məşğul olub".

Azərbaycan sərhədçilərinin Ermənistanla dövlət sərhədində vəzifələrinin öhdəsindən bacarıqla gəldiklərini vurğulayan nazir bildirib: "Ötən əsrin 90-cı illərindən Ermənistanla sərhədi Azərbaycan Ordusu mühafizə edirdi. Azərbaycanın Sərhəd Qoşunları inkişaf edir, yeni silahlarla təchiz edilir, döyüş hazırlığı ilə məşğul olur. Ali Baş Komandan Ermənistanla sərhədin kiçik bir hissəsinin mühafizəsinin Sərhəd Qoşunlarına təhvil verilməsi barədə göstəriş verdi ki, gələcəkdə bu sahə sərhədçilərə həvalə olunsun. Bu gün sərhədçilər öz işlərinin öhdəsindən bacarıqla gəlirlər. Gələcəkdə Ermənistanla dövlət sərhədinin digər hissələrinin də mühafizəsinin Sərhəd Qoşunlarına verilməsi barədə Ali Baş Komandanın qərarı olarsa, bu, ordumuzun ehtiyatını daha da artırar. Ermənilər də bunu başa düşürlər".

Azərbaycan Ordusunun şəxsi heyətinin 80 faizinin peşəkar hərbçilərdən ibarət olduğunu vurğulayan nazir deyib: "Bu gün orduda döyüş qabiliyyətini müəyyən edən vəzifələrdə peşəkar hərbçilər xidmət edirlər. Tankların, zirehli döyüş maşınlarının, artilleriya vasitələrinin, gəmilərin, hava hücumundan müdafiə texnikalarının heyətləri, sürücülər orduda müqavilə əsasında xidmət edirlər. Artıq onlar öz sahələrində kifayət qədər peşəkardırlar. Müddətli hərbi xidmət keçən əsgərlər isə yalnız atıcı vəzifələrində xidmət edirlər".

Müdafiə naziri xüsusi vurğulayıb ki, Azərbaycan Ordusu qarşıya qoyulan bütün tapşırıqları yerinə yetirməyə qadirdir. Keçirilən təlimlər də məhz buna hesablanıb.

*Hərbi təhsil*

# Müdafiə naziri: Tabeliyinizdə olan şəxsi heyəti Vətənə sevgi və düşmənə nifrət ruhunda tərbiyə etməlisiniz

*Müdafiə naziri general-polkovnik Zakir Həsənov Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində bu təhsil ocağının, Silahlı Qüvvələrin Hərbi Akademiyasının və Azərbaycan Tibb Universitetinin Hərbi Tibb Fakültəsinin məzunları ilə görüşüb.*





Müdafiə Nazirliyinin rəhbərliyi hərbi məktəbin ərazisində ucaldılmış ümummilli liderimiz Heydər Əliyevin abidəsi önünə gül dəstələri qoyaraq Ulu Öndərin xatirəsini ehtiramla yad ediblər.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, məzunlarla görüş ümummilli liderimiz Heydər Əliyevin və Vətənimizin müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi, Dövlət himninin səsləndirilməsi ilə başlayıb.

Təhsillərini müvəffəqiyyətlə başa vuraraq "leytenant" hərbi rütbəsi alan məzunları təbrik edən Müdafiə naziri qeyd edib ki, Azərbaycan Ordusunun hər bir zabiti rəhbərlik etdiyi hərbi kollektivə şəxsi nümunə və dövlətə sadiq olmalı, Vətənə və torpağa sevgi, düşmənə nifrət hissi ilə xidmət etməlidir.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin tapşırığına əsasən, Azərbaycan Ordusunda aparılan islahatlar barədə danışan Müdafiə naziri ordu quruculuğunda həyata keçirilən vacib tədbirləri, şəxsi heyətin döyüş və mənəvi-psixoloji hazırlığında qarşıda duran mühüm vəzifələri diqqətə çatdırıb. Həmçinin nazir vurğulayıb ki, hərbi qulluqçuların təminatının, sosial-məişət şəraitinin, sağlamlıq məsələlərinin diqqətdə saxlanılması və yaxşılaşdırılması üçün yeni hərbi şəhərciklərin, daimi və xidməti mənzillərin istifadəyə verilməsi də dövlətimizin prioritet istiqamətlərindəndir.

Məzunlara tövsiyələrini çatdıran Müdafiə naziri bu şərəfli yolda onlara uğurlar arzulayaraq bildirib: "Hər bir zabit azərbaycançılıq ideologiyasına sadiq olmalı, şəxsi heyətə hörmət və qayğı ilə yanaşmalı, kollektivdə sağlam mühit formalaşdırmalıdır. Zabit kimi məsuliyyətli və şərəfli ad qazanmısınız, hər biriniz bu məsuliyyəti yaxşı dərk edib, inamlı xidmət etməlisiniz. Tabeliyinizdə olan şəxsi heyəti Vətənə sevgi və düşmənə nifrət ruhunda tərbiyə etməli, ordumuzun döyüş qabiliyyətinin ən yüksək səviyyəyə çatdırılması istiqamətində bilik və bacarığınızı səfərbər etməlisiniz. Azərbaycan iqtisadiyyatının inkişafının, ordumuzun müasir tələblər səviyyəsində qurulmasının, dünya standartlarına uyğun olan silah və texnika ilə təchizatının, şəxsi heyətin döyüş ruhunun, mənəvi-psixoloji vəziyyətinin yüksək olması Ali Baş Komandanın qayğısı ilə əhatə olunmasının nəticəsidir. Siz də öz nümunəvi xidmətinizlə Azərbaycan Ordusunun inkişafına töhfənizi verməli, "Vətənə, xalqa və dövlətə xidmət ömrümüzün mənasıdır" şüarını rəhbər tutaraq dövlət və dövlətçiliyimizə xidmət etməlisiniz".

Xidməti təcrübəsini məzunlarla bölüşən Müdafiə naziri deyib ki, zabit öz davranışı, əxlaqi keyfiyyətləri, nizam-intizamı, vətənpərvərliyi, milli-mənəvi dəyərlərə bağlılığı ilə hər zaman şəxsi nümunə olmalı, ölkə Prezidenti və xalqımız tərəfindən göstərilən yüksək dəyəri daim nümunəvi xidməti ilə doğrultmalı, Vətənimizi və xalqımızı etibarlı şəkildə qorumalıdır.

# Artilleriyaçılarla komandir toplanışı keçirilib



Müdafiə nazirinin təsdiq etdiyi 2019-cu ilin döyüş hazırlığı planına əsasən, birlik və birləşmələrin artilleriya rəisləri, həmçinin artilleriya hərbi hissələrinin komandirləri və onların müavinləri ilə komandir toplanışı keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, tədbirdə raket və artilleriya bölmələri ilə döyüş vəziyyətinə uyğun şəraitdə təlim və məşğələlər keçirilib, döyüş hazırlığının yekunları və hərbi intizamın vəziyyəti təhlil edilib, növbəti tədris mövsümü ilə əlaqədar tapşırıqlar verilib.

Toplanışın yekununda zabit heyətinin nəzəri biliklərinin yoxlanılması məqsədilə məqbullar qəbul edilib və praktiki atışlar icra olunub.

# Azərbaycanın Əfqanıstandakı əməliyyatlara dəstəyi ABŞ tərəfindən yüksək qiymətləndirilib

Azərbaycanın Xarici İşlər naziri Elmar Məmmədyarov Vaşinqtonda ABŞ Dövlət Katibinin siyasi məsələlər üzrə müavini Devid Heyl ilə görüşüb.

XİN-dən AZƏRTAC-a bildiriblər ki, görüşdə ikitərəfli əməkdaşlığın siyasi gündəliyinə daxil olan bir sıra məsələlər müzakirə edilib. Azərbaycan-ABŞ münasibətlərinin əsas cəhətləri, əməkdaşlığın inkişaf etdirilməsi üzrə prioritet istiqamətlər və son zamanlar əməkdaşlıqda artan dinamika barədə geniş fikir mübadiləsi aparılıb.

Bölgədə mövcud vəziyyət barədə danışan iki dövlətin rəsmiləri həlli uzadılmış Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması üzrə aparılan danışıqlar prosesinin hazırkı vəziyyəti və prosesin irəli aparılması üçün atılmalı olan zəruri addımları müzakirə ediblər. Tərəflər ATƏT-in Minsk Qrupu çərçivəsində hazırda aparılan danışıqlar prosesinə dəstəyi ifadə ediblər.

Azərbaycanın Əfqanıstandakı əməliyyatlar kontekstində göstərdiyi dəstək ABŞ tərəfindən yüksək qiymətləndirilib və bu xüsusda ölkəmizin strateji önəmi Dövlət Katibinin müavini tərəfindən vurğulanıb.

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***20 iyun 2019-cu il.***

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 20 dəfə pozub.

Ermənistan Respublikası Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Zamanlı kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Ağdam rayonunun Tağıbəyli, Şıxlar, Füzuli rayonunun Aşağı Veysəlli, Qərvənd kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

***21 iyun 2019-cu il.***

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində qumbaraatanlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 21 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonunun Şavarşavan kəndində, İcevan rayonunun Ayqeovit kəndində yerləşən mövqelərdən Qazax rayonunun Quşçu Ayrım, Bala Cəfərli kəndlərində və adsız yüksəkliklərdə, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Zamanlı kəndində yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Çiləbürt, Ağdam rayonunun Baş Qərvənd, Mərzili, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin Tərtər və Ağdam rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

# Ümumqoşun poliqonunda təlim keçirilib



Müdafiə nazirinin təsdiq etdiyi 2019-cu il üçün döyüş hazırlığı planına əsasən, ümumqoşun poliqonunda hərbi birliklərdən birinin təlimi keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, təlim qoşunların idarə edilməsi vərdişlərinin təkmilləşdirilməsi və bölmələrin döyüş uzlaşmasının səviyyəsinin artırılması, taktiki əməliyyatlar zamanı fəaliyyətlərin planlaşdırılması, bölmələrin idarə edilməsində qoşun növləri ilə qarşılıqlı fəaliyyətin təşkili və digər məsələləri məşq etdirmək məqsədilə keçirilib.



Təlimlərə cəlb olunan qüvvə və vasitələr qarşıya qoyulan tapşırıqları ardıcıl olaraq yerinə yetiriblər. Motoatıcı, artilleriya, zirehli tank bölmələri, eləcə də hava hücumundan müdafiə vasitələri döyüş atışları icra ediblər.

# “Azərbaycan Ordusu qarşıya qoyulan bütün tapşırıqları yerinə yetirməyə qadirdir”

(Əvvəli 1-ci səhifədə)

1991-ci il oktyabrın 9-da Milli Ordunun yaranması haqqında Azərbaycan Respublikasının Ali Soveti qanun qəbul etdi. Ulu öndər Heydər Əliyevin 22 may 1998-ci il tarixli Fərmanına əsasən 26 iyun tarixi Azərbaycan Respublikasının Silahlı Qüvvələr Günü elan edildi.

Azərbaycan Ordusunun ənənələri müasir dövrdə də qorunub saxlanılır və inkişaf etdirilir. Ali Baş Komandan Heydər Əliyevin rəhbərliyi altında Silahlı Qüvvələr quruculuğu sahəsində aparılan işlər ölkəmizdə mütəşəkkil, qüdrətli ordu yaratmağa imkan vermiş, onun gələcəkdə daha da möhkəmlənməsi üçün əsaslı zəmin yaratmışdır.

Ordu yaradılmasına başlanıldığı vaxtdan müxtəlif təzyiqlərə məruz qaldı. Həm xaricdən, həm də daxildən göstərilən təzyiqlərin əsas məqsədi ordu quruculuğunun qarşısını almaqla Azərbaycanın müstəqil bir dövlət kimi mövcudluğuna yol verməmək idi. Sovet hakimiyyəti dövründə Rus imperiyasının azərbaycanlılara qarşı hərbi sahədə siyasəti müəyyən mənada dəyişmişdi. Sovet dönəmində azərbaycanlı gənclər hərbi xidmətə çağırılırdılar. Lakin onlar əsasən tikinti batalyonlarında xidmət edirdilər. Məqsəd aydın idi - azərbaycanlılar gənclərin hərb elminə dərindən yiyələnən, müasir silahlarla rəftar etməyi bacaran hərbçilərin yetişdirilməsinə imkan verməmək. Bu siyasətin mahiyyətini yaxşı başa düşən Ulu Öndər 1971-ci il iyunun 20-də Cəmşid Naxçıvanski adına ixtisaslaşdırılmış hərbi məktəbi yaratdı. Ümummilli Lider azərbaycanlı gənclərin Bakı Ali Birləşmiş Komandanlıq və Bakı Ali Hərbi Dənizçilik məktəblərinə, eləcə də SSRİ-nin digər hərbi məktəblərinə güzəştli şərtlərlə qəbul olunmasına nail olmuşdu. Bu gün C.Naxçıvanski adına Hərbi Liseyin milli zabit kadrlarımızın hazırlanmasında müstəsna rolu vardır.

28 il öncə Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdə ölkəmiz hərbi sahədə ciddi böhranla üzləşdi. Nizami orduya malik olmayan Azərbaycanın qarşısında duran əsas iş Qarabağ uğrunda gedən döyüşlərdə vəziyyəti nəzarət altına almaq idi ki, bu da çox çətinliklə həyata keçirilirdi. Ordunun maddi-texniki təminatı problemlərlə müşayiət edilirdi. Ancaq tədricən müharibədəki məğlubiyyətlərin qarşısını almaq üçün ölkənin bütün imkanları milli ordu quruculuğuna səfərbər edildi. Könüllü batalyonlardan nizami orduya doğru ilk ciddi addımlar atıldı. Qismən hərbi səfərbərlik və orduya çağırış işi təşkil olundu.



Xalqın təkidli tələbi ilə hakimiyyətə gəldikdən sonra Ulu öndər Heydər Əliyev ordu ilə xalq arasındakı əlaqələri yeni bir səviyyəyə qaldırdı, bu əlaqələri daha səmərəli və səmimi etdi. Bütün fəaliyyətində xalqa güvənən, xalqın etimadına arxalanan ümummilli lider Heydər Əliyev xalqı ordunun güc mənbəyi, ordunu isə xalqın bir parçası sayırdı. O əmin idi ki, xalqın orduya doğma münasibəti, xalqın ordunu qayğı ilə əhatə etməsi ordunun inkişafının və möhkəmlənməsinin əsas şərtlərindən biridir.

Ümummilli lider Heydər Əliyev hər şeydən əvvəl ordu quruculuğuna dövlət rəhbərliyini təmin etməklə ordunu siyasətdən kənarlaşdıraraq ölkə Konstitusiyasından irəli gələn vəzifələrə xidmət göstərməsini təmin etdi. O, orduda vahid komandanlığın praktiki əsaslarını yaradaraq idarəetmə strukturlarına qarşı məsuliyyəti ciddiləşdirdi, ordu quruculuğunu dövlət quruculuğunun digər sahələri ilə üzvü şəkildə əlaqələndirdi. Ordu dövlətin qayğısı ilə əhatə olundu, ordunun ehtiyacları vaxtlı-vaxtında aradan qaldırıldı və bununla bağlı dövlətin bütün orqanlarının cavabdehliyi artırıldı. Dövlət tərəfindən dövlətin və xalqın mənafelərinə cavab verən hərbi siyasət müəyyənləşdirildi, bu siyasətlə ordu quruculuğu qarşısında dayanan vəzifələr və onların icra yolları konkretləşdirildi, dövlətin yetərli müdafiə qabiliyyətinin yaradılması üçün əməli addımlar atıldı.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi altında ordu quruculuğu sahəsində həyata keçirilən siyasət qısa vaxtda Azərbaycan Ordusunu Cənubi Qafqazın ən güclü ordusuna çevirdi. Dövlətimizin siyasi və iqtisadi baxımdan davamlı inkişafı ordumuzun gələcəkdə də öz inkişaf tempini saxlamaq üçün əsaslı bir təminatdır.

Son illər Azərbaycanın hərbi potensialı xeyli artıb. Ölkəmizə ən müasir silah-sursat, texnika, avadanlıq gətirilib. Azərbaycan Ordusu bu gücünü Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 2016-cı ilin aprelində bir daha sübut etdi. Ermənistan ordusunun təxribatlarına cavab olaraq, Azərbaycan Ordusu sürətli əks-hücum əməliyyatı ilə düşməni ağır məğlubiyyətə uğradaraq, Füzuli, Cəbrayıl və Ağdərə rayonlarının işğal altındakı ərazilərinin 2000 hektardan çox hissəsini azad etdi. Həmçinin minlərlə hektar ərazi Azərbaycan Ordusunun tam nəzarətinə keçdi.

Bu əməliyyatın ən böyük nəticələrindən biri odur ki, Azərbaycan Ordusu mənəvi-psixoloji, döyüş ruhu, sosial, ictimai, texniki-təchizat, silah-sursat, peşəkarlıq baxımdan Ermənistan ordusunu nə qədər qabaqladığı təsdiqləndi.

Azərbaycan Ordusunun Naxçıvan Muxtar Respublikası ərazisində keçirdiyi Günnüt əməliyyatı da Silahlı Qüvvələrimizin uğurları sırasındadır.

Bu uğurlar Azərbaycanın hərbi-siyasi mövqelərini daha da gücləndirdi, işğal altında olan bütün ərazilərimizi azad etməyə qadir olduğumuzu sübuta yetirdi.

Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin "Bu gün Azərbaycan Ordusu güclü ordular sırasındadır. Bunu biz bilirik, Azərbaycan xalqı bilir və bütün dünya bilir. Güclü orduların reytinqlərində Azərbaycan Ordusunun çox yüksək yeri vardır. Ordumuzun döyüş qabiliyyəti yüksək səviyyədədir, günbəgün artır. Ordumuzda nizam-intizam hökm sürür. Ordumuzun maddi-texniki təminatı ən yüksək səviyyədədir. Biz son illər ərzində milyardlarla dollar dəyərində ən müasir silah-sursat, hərbi texnika almışıq. O texnikalar ən son texnologiyaya malikdir" fikirləri məhz bu baxımdan diqqəti çəkir.

Azərbaycan Ordusu beynəlxalq terrorizmə qarşı mübarizədə fəallıq göstərir. Ölkənin Sülhməramlı qüvvələri Əfqanıstandakı koalisiya əməliyyatlarında iştirak edir.

2018-ci ildə keçirilən hərbi paradlar bir daha Azərbaycan Ordusunun Cənubi Qafqaz bölgəsində ən müasir, ən aparıcı və texniki baxımdan yüksək səviyyədə təmin olunmuş bir ordu olduğunu göstərdi.

Parad zamanı nümayiş etdirilən hərbi texnika, əsgərlərin hazırlığı, Hərbi Hava Qüvvələrinin yüksək səviyyədə göstərdiyi məharət və bacarıq heç bir sözə, ifadəyə ehtiyac duymadan ordumuzun gücünü, göstərilən diqqət və qayğını əks etdirdi.

Paradda çıxış edən Ali Baş Komandan İlham Əliyev ordumuzun qüdrəti və bu istiqamətdə qarşıda duran bir sıra məsələlərə toxunub. Prezident çıxışında bildirib: “Gün gələcək, işğaldan azad olunmuş torpaqlarda qaldırılan Azərbaycan bayrağı Azadlıq meydanına gətiriləcək və hərbi paradda nümayiş etdiriləcək. Azərbaycan Ordusu dünyanın ən güclü orduları sırasındadır. Ordunun müasir maddi-texniki təchizatı baxımından Azərbaycan dünyanın ən nadir ölkələrindən biridir. Ermənistan Azərbaycanla rəqabət apara bilmir və heç vaxt buna nail ola bilməyəcək. Azərbaycan isə heç vaxt işğalla barışmayacaq və öz ərazi bütövlüyünü bərpa edəcək".

Azərbaycan Ordusu dövlətin və xalqın etimadına layiq bir ordudur. Əldə olunan uğurlar, keçirilən təlimlər deməyə əsas verir ki, 101 illik tarixi olan Azərbaycan Ordusu tezliklə işğal altında olan torpaqlarımızı azad edəcək.

**Baş leytenant**
**Günay TAĞIYEVA,**
**"Azərbaycan Ordusu"**

*Minnətdarlıq*

# Hərbçilərə göstərilən diqqət və qayğının növbəti təzahürü

*Müasir Azərbaycan dövlətinin qurucusu ümummilli lider Heydər Əliyevin sosialyönümlü iqtisadi inkişaf strategiyasının Prezident İlham Əliyev tərəfindən uğurla inkişaf etdirilməsi nəticəsində bu gün ölkəmizin sosial-iqtisadi tərəqqisi keyfiyyətcə yeni mərhələyə qədəm qoyub. Hazırda Azərbaycanda prioritet istiqamətlərdən biri də sosial siyasətdir. Davamlı olaraq həyata keçirilən bu siyasətin məntiqi nəticəsi kimi ciddi infrastruktur layihələri, artan əməkhaqları və müavinətlər, əhalinin rifah halının yüksəldilməsi istiqamətində atılan addımlar nümunə göstərilə bilər. Bu günlərdə ölkə başçısının bütün güc strukturlarının, o cümlədən Azərbaycan Respublikasının Müdafiə Nazirliyinin dövlət büdcəsindən maliyyələşdirilən qurumlarının hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin sosial müdafiəsini gücləndirmək məqsədilə imzaladığı Sərəncam da bu qəbildəndir.*





**3-cü dərəcəli kapitan İlhami Quliyev:**

- Ali Baş Komandanın bu Sərəncamına görə çox sevincliyik. Nəinki hərbi qulluqçuların özləri, hətta onların ailə üzvləri, yaxın qohumları da buna görə çox sevinirlər. Bu yüksək diqqət və qayğıya görə Prezidentimizə minnətdarlığımızı bildiririk.

Bu Sərəncam bizim sosial-məişət şəraitimizi daha da yaxşılaşdıracaq, şəxsi heyətin mənəvi-psixoloji durumunun yüksəlməsinə çox böyük təkan verəcək. Biz hərbi qulluqçular üçün ilk sırada Vətənə xidmət, onu qorumaq dayanır. Bu Sərəncam bizim üzərimizə qoyulmuş məsuliyyəti bir daha artırır. Bundan sonra da biz hərbçilər göstərilən etimadı doğrultmağa, daha nümunəvi xidmət aparmağa, Vətəni qorumağa hər an hazırıq.

**Baş leytenant Vüsal Ağalarov:**

- Ölkə Prezidenti, Ali Baş Komandan İlham Əliyev hər zaman cəmiyyətdə bütün kateqoriyadan olan təbəqələrə, o cümlədən hərbi qulluqçulara diqqət və qayğısını əsirgəmiyib, bu gün də əsirgəmir. Dövlət başçısının yaxın günlərdə imzaladığı Müdafiə Nazirliyinin hərbi qulluqçularının (müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları istisna olmaqla) aylıq pul təminatı vəzifə maaşlarının orta hesabla 40 faizi həcmində artırılması haqqında Sərəncamı da sübut edir ki, biz hərbi qulluqçuların və ailələrimizin sosial təminatı Ali Baş Komandanımızın diqqət mərkəzindədir. Bizi sevindirən odur ki, dövlətimiz, o cümlədən qüdrətli, dünyanın aparıcı dövlətlərinin Silahlı Qüvvələri ilə rəqabət aparmaq gücündə olan ordumuz gündən-günə inkişaf edir, güclənir. Aprel döyüşləri, Günnüt zəfəri, keçən il keçirilən hərbi paradlar bu inkişafın, tərəqqinin bariz sübutudur. Biz hərbi qulluqçular, həmçinin ailə üzvlərimiz inkişafı, tərəqqini, eyni zamanda dövlət başçımız tərəfindən bu münasibəti gördükcə böyük qürur hissi keçiririk.

Bu gün bütün hərbi qulluqçuların maddi rifah halı yüksəlib. Aparılan islahatlar, atılan addımlar ordumuzun döyüş hazırlığının yüksəldilməsi və torpaqlarımızın işğaldan azad olunması naminədir. Hesab edirəm ki, bizlər də öz bilik və bacarığımızdan, təcrübəmizdən istifadə edərək, Ali Baş Komandanımızın etimadını doğruldacaq, ordumuzun güclənməsinə öz töhfələrimizi verəcək, xalqımıza Böyük Qələbənin sevincini yaşadacağıq.

Bu gün Azərbaycan dövlətinin, Silahlı Qüvvələrin qarşısında duran ən vacib məsələ Qarabağ probleminin həll olunması, torpaqlarımızın işğaldan azad olunmasıdır. Münaqişə ədalətli həllini tapanda, tarixi torpaqlarımız işğaldan azad olunanda yanan qəlbimizə su səpiləcək, şəhidlərimizin ruhu rahatlıq tapacaq. Xalqımız inanır ki, tezliklə Azərbaycan Ordusu bu tarixi nailiyyəti əldə edəcək, Azərbaycanın üçrəngli bayrağını Ağdamda, Xankəndidə, Şuşada... dalğalandıracaq. Vətənini, torpağını, xalqını sevən Prezidentimizlə, Ali Baş Komandanımızla xalqımıza, millətimizə, dövlətimizə tezliklə qələbə sevinci bəxş edəcəyik!



Mən bir daha müvafiq sərəncama görə, Ali Baş Komandan İlham Əliyevə dərin minnətdarlığımı bildirirəm. Azərbaycan Ordusunun hərbi qulluqçularına göstərdiyi diqqət və qayğıya, sosial təminatımızla, yaxşı yaşamağımızla bağlı gördüyü bütün işlərə görə dərin təşəkkür edirəm.

**Leytenant Asim Hüseynli:**

- Biz Vətən qoruyucularıyıq. Vətənini heç bir təmənnasız canı-könüldən sevən, onu göz bəbəyi kimi qoruyanlarıq. Seçdiyimiz şərəfli peşəyə ürəkdən bağlıyıq. Hamımız Vətənə və torpağa sevgi, düşmənə nifrət hissi



ilə xidmət edirik. Bu müqəddəs yolda canımızı sevə-sevə verməyə hər an hazırıq. Düzdür, biz Vətənimizi qarşılıqsız sevirik. Lakin hər bir işdə insan öz əməyinə qiymət verildiyini görəndə daha da ruhlanır, daha da yaxşısını etməyə çalışır. Bir zabit kimi ölkəmizdə ordu quruculuğunun hər zaman prioritet məsələ olduğunu, Ali Baş Komandanımız tərəfindən Vətən keşikçilərinə yüksək diqqət və qayğı göstərildiyini, xalq tərəfindən ordu mənsublarına xüsusi rəğbət və hörmət bəsləndiyini hər an hiss edirəm. Bunlarla yanaşı, sosial rifahımızın yaxşılaşdırılması istiqamətində xeyli işlər görüldüyünün də hamı şahididir. Bir sözlə, ölkəmizin beynəlxalq aləmdə artan nüfuzu ölkədəki ordu quruculuğu işində də özünü göstərir. Prezidentimiz tərəfindən orduya göstərilən diqqətin nəticəsidir ki, ordu quruculuğu işində aparılan islahatlar, vaxtında və yüksək səviyyədə həyata keçirilən tədbirlər ordumuzda zəruri irəliləyişlərin əldə olunması üçün stimul rolunu oynayır. Sosial-məişət şəraitimizin daim yaxşılaşdırılması, yeni və müasir silah-texnika ilə təmin olunmağımız, aylıq vəzifə maaşlarımızın dəfələrlə artırılması, sağlamlığımızın daim diqqətdə saxlanılması, yeni hərbi şəhərciklərin, daimi və xidməti mənzillərin istifadəyə verilməsi ordu sıralarında xidmət edən hər bir şəxsin mənəvi-psixoloji durumunun yüksək olmasında müsbət rol oynayır. Ordumuz dünyaya səs salan Aprel və Günnüt qələbələri ilə də bir daha sübut etdi ki, müasir silah və texnikası ilə yanaşı, şəxsi heyətinin döyüş ruhu da yüksəkdir və sönməzdir.

Bir neçə gün bundan öncə ölkə başçımız tərəfindən əmək haqlarımızın artırılması ilə bağlı verilən sərəncam hamı kimi məni də sevindirdi. Sosial-məişət şəraitimizin daha da yaxşılaşdırılması istiqamətində atılan bu addım həm iqtisadiyyatımızın artan gücünün göstəricisi, həm də Ali Baş Komandanımızın daim xalqın rifahı üçün çalışdığının, yürütdüyü uğurlu daxili və xarici siyasətin yalnız bir istiqamətə - əhalinin yaşayış səviyyəsinin və minimum əmək haqqının daha da yüksəldilməsinə xidmət etdiyinin bariz nümunəsidir. Həm bir vətəndaş, həm də Ali Baş Komandanın əsgəri kimi bütün silahdaşlarım adından Prezidentimizə dərin minnətdarlığımı bildirirəm. Hər birimiz bunu dərindən dərk edirik ki, bu qayğı, əlbəttə, böyük tələb və etimadla müşayiət olunur. Odur ki, gecə-gündüz əldə silah yurdumuzun keşiyində inamla dayanır, Ali Baş Komandanımızın və xalqımızın etimadını doğrultmaq üçün əlimizdən gələni edir, ölkənin işıqlı sabahı və bütövlüyü naminə öz döyüş hazırlığımızı daim artırırıq. Bundan sonra



da hər birimiz xidmətimizdə daha məsuliyyətli olacaq, uğurlu xidmətimizlə bizə göstərilən inamı doğruldacağıq.

**Gizir İbrahim Məmmədov:**

- Həqiqi hərbi xidmətimin ön xətdə keçməsilə həmişə fəxr etmişəm. Səngərin nə olduğunu mən də yaxşı bilirəm. Onu da bilirəm ki, biz səngərləri dövlət sərhədlərimizə köçürmək üçün xidmət edirik və Ali Baş Komandanın döyüş əmriylə yaxın vaxtlarda bunu yerinə yetirəcəyik.

Tərxis edildikdən sonra xidmətimi davam etdirmək istədim. İstəyimi nəzərə aldılar. Mənə təhsil almaq üçün şərait yaradıldı. Yenə ön xətdə xidmət edirəm.

Ötən il Azərbaycan Ordusunun yaradılmasının və Bakının işğaldan azad edilməsinin 100 illiyinə həsr olunan paradlar təsdiqlədi ki, ordumuz güclüdür, qüdrətlidir, torpaqlarımızı işğaldan azad etməyə qadirdir. Mən fəxr edirəm ki, belə bir ordunun hərbi qulluqçusuyam. Biz 2016-cı ildə Lələtəpə, Bayraqtəpə, 2018-ci ildə Günnüt zəfərlərini qazanan hərbi qulluqçuların davamçıları olacağıq. Bu, bizim hər birimizin hərbi xidmət amalımızdır.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə xidmət yoldaşlarım adından hərbi qulluqçuların vəzifə maaşlarını artırdığına görə təşəkkürümü bildirirəm. Ölkə başçısını və ictimaiyyəti əmin edirəm ki, hər birimiz torpaqlarımızın işğaldan azad edilməsi üçün veriləcək döyüş əmrinə hazırıq. Biz qalib gələcəyik!..

**Baş çavuş Elçin Talıbov:**

- Ali Baş Komandanımıza Müdafiə Nazirliyinin hərbi qulluqçularının aylıq pul təminatının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə maaşlarının artırılması haqqında imzaladığı Sərəncama görə təşəkkürümüzü bildiririk. Fəxr edirik ki, Ali Baş Komandan ordumuza, düşmənlə üz-üzə səngərdə xidmət edən biz hərbçilərə belə diqqət və qayğı göstərir. Bu, təkcə bizi yox, ailə üzvlərimizi də sevindirir. Bu Sərəncam onu göstərdi ki, Prezidentimiz hərbi qulluqçuların yalnız özlərinin deyil, onların ailə üzvlərinin də sosial müdafiəsinin gücləndirilməsi, maddi rifahının yaxşılaşdırılması istiqamətində daim mühüm tədbirlər həyata keçirir. Ali Baş Komandan Azərbaycan Ordusunun hərbi qulluqçularına öz qayğısını növbəti dəfə ifadə etdi.

**"Azərbaycan Ordusu"**

# Silahlı Qüvvələrin Hərbi Akademiyasında buraxılış mərasimi

*Silahlı Qüvvələrin Hərbi Akademiyasında Strateji Araşdırmalar və Dövlət Müdafiəsini İdarəetmə Akademik Kursunun növbəti buraxılışı həyata keçirildi. Buraxılış mərasimində Türkiyə Silahlı Qüvvələrinin Azərbaycan Respublikasında Hərbi Attaşesi general-mayor İsmayıl Hakkı Köseali də iştirak etdi.*




Silahlı Qüvvələrin Hərbi Akademiyasının rəisi general-leytenant Heydər Piriyev mərasim iştirakçılarını Milli Qurtuluş Günü və Azərbaycan Ordusunun yaradılmasının 101-ci ildönümü münasibəti ilə Müdafiə naziri general-polkovnik Zakir Həsənovun adından təbrik etdi:

- Silahlı Qüvvələrin Hərbi Akademiyasının əsas vəzifələrindən biri dövlət orqanlarında çalışan vəzifəli şəxslərə respublikanın müdafiəsi və təhlükəsizliyi ilə bağlı hərbi-strateji, hərbi-iqtisadi və hərbi-siyasi məsələlərin öyrədilməsini təmin etməkdir. Bu il Hərbi Akademiyanın Strateji Araşdırmalar və Dövlət Müdafiəsini İdarəetmə Akademik kursundan 16 dövlət təşkilatından 20 dinləyici məzun olur.

Strateji Araşdırmalar və Dövlət Müdafiəsini İdarəetmə Akademik Kursunda müdafiənin strategiyası və planlaşdırması, Azərbaycanın beynəlxalq əlaqələri, iqtisadiyyatımızın inkişaf strategiyası və dünya iqtisadiyyatına inteqrasiyası, sosial-mədəni və milli təhlükəsizliyimizi əhatə edən digər məsələlərə dair mühazirələr oxundu.

Güc nazirliklərinin mütəxəssisləri kursun tədris proqramına uyğun olaraq Azərbaycan Respublikası Silahlı Qüvvələrinin yaradılması və təşəkkül tapması, onların strukturu, qarşısında duran vəzifələri haqqında və digər mövzularda akademik kursun dinləyiciləri qarşısında çıxışlar etdilər.

Hərbi Akademiyanın və akademik kursun tədris proqramlarına müvafiq olaraq Strateji Araşdırmalar və Dövlət Müdafiəsini İdarəetmə Akademik Kursunun və Əməliyyat-taktiki fakültənin dinləyiciləri Hərbi oyunda iştirak etdilər.

Hərbi oyun müddətində akademik kursun dinləyiciləri hökumətin rəhbər vəzifələrini, şərti olaraq, böhran və müharibə şəraitində icra ediblər.

Hərbi Akademiyanın tədris proqramına müvafiq olaraq akademik kursun dinləyiciləri Xarici İşlər Nazirliyi, Daxili Qoşunların, Hərbi Hava Qüvvələrinin və Fövqəladə Hallar Nazirliyinin hərbi hissələri, Müdafiə Sənayesi Nazirliyinin elm-istehsalat birliyi, iri yanacaq və energetika kompleksləri, Müdafiə Nazirliyinin xüsusi təyinatlı təhsil müəssisələri, respublikanın strateji əhəmiyyətli obyektləri və mədəni-tarixi yerləri ilə tanış oldular.

Şübhəsiz, bu praktiki məşğələlər dinləyicilərin respublikanın sənaye potensialı və Silahlı Qüvvələrin döyüş hazırlığı, mənəvi-psixoloji durumu, məişət şəraiti ilə bağlı təsəvvürlərini daha da genişləndirdi.

Silahlı Qüvvələrin Hərbi Akademiyasının yaradılmasında və tədris prosesinin təşkil edilməsində Türkiyə Silahlı Qüvvələrinin Azərbaycan Respublikasındakı hərbi attaşeliyinin əməyi də yüksək qiymətləndirildi.

Silahlı Qüvvələrin Ali Baş Komandanı şəxsi heyət qarşısındakı son çıxışlarının birində demişdir: "Bu gün biz yaxşı bilirik ki, Ermənistan dövləti tarixi Azərbaycan torpaqlarında yaranıbdır... Biz azərbaycanlılar o torpaqlara qayıtmalıyıq və qayıdacağıq. Biz öz ərazi bütövlüyümüzü bərpa etməliyik... Bütün işğal olunmuş torpaqlarda, o cümlədən Şuşada, Xankəndidə Azərbaycan bayrağı qaldırılacaqdır. Bu bizim məqsədimizdir. Bu məqsədə doğru gedirik və biz bu məqsədə çatmalıyıq. Bunun üçün daha güclü ordu yaratmalıyıq."

Ali Baş Komandanın bu sözləri Hərbi Akademiyanın da qarşısında kadr hazırlığı sahəsində yeni tapşırıqlar qoyur.

Azərbaycan Respublikası Silahlı Qüvvələri üçün müasir tələblərə cavab verən ali hərbi təhsilli komandir və qərargah zabitlərinin hazırlanması, hərb elminin təşkili və inkişaf etdirilməsi, ölkənin müdafiəsinin və təhlükəsizliyinin təmin edilməsi məqsədi ilə Silahlı Qüvvələrlə mülki dövlət qurumlarının birgə fəaliyyətinin təşkili məsələləri bundan sonra da Hərbi Akademiyanın fəaliyyətinin əsas istiqamətləri olacaqdır".

Tədbirdə məzunlar adından Xarici İşlər Nazirliyinin nümayəndəsi Leyla Məmmədəliyeva və Dövlət Gömrük Komitəsinin nümayəndəsi gömrük xidməti polkovniki Elçin Allahverdiyev çıxış etdilər. Natiqlər akademik kursda tədris prosesinin təşkilini və dinləyicilər üçün yaradılmış şəraiti yüksək qiymətləndirdi və Hərbi Akademiyanın komandanlığına təşəkkürlərini bildirdilər.

Silahlı Qüvvələrin Hərbi Akademiyasının professor-müəllim heyəti adından Milli Təhlükəsizlik və Humanitar Elmlər kafedrasının professoru Rasim Həsənov çıxış etdi, məzunlara gələcək xidməti fəaliyyətlərində uğurlar arzuladı.

Buraxılış mərasiminin sonunda xatirə şəkli çəkdirildi.

**Polkovnik**
**Telman ŞAHBAZOV,**
**Silahlı Qüvvələrin Hərbi Akademiyasının Strateji Araşdırmalar və Dövlət Müdafiəsini İdarəetmə Akademik Kursunun rəisi**

*Vətənə, xalqa, dövlətə xidmət ömrümüzün mənasıdır*

# Döyüş postlarının növbətçi heyətləri arasında müsabiqə keçirilib





Azərbaycan Respublikası Müdafiə nazirinin təsdiq etdiyi "Azərbaycan Respublikası Silahlı Qüvvələrində hərbi ixtisaslar üzrə yarış və müsabiqələrin keçirilməsinin tənzimlənməsi haqqında Təlimat"a əsasən, Müdafiə nazirinin müavini - Şəxsi Heyət Baş İdarəsi rəisinin əmri ilə "Vətənə, xalqa, dövlətə xidmət ömrümüzün mənasıdır!" devizi altında düşmənlə təmas xəttində döyüş tapşırıqlarını yerinə yetirən birliklərin döyüş növbətçi heyəti arasında "Ən intizamlı və döyüş yoldaşlığı möhkəm olan post" və Hərbi Hava Qüvvələrinin hava-hücumundan müdafiə hərbi hissələrində "Ən yaxşı döyüş növbətçi heyəti" müsabiqələri keçirilib.

Döyüş hazırlığı və qoşun xidmətinin səviyyəsinin daha da yüksəldilməsi, şəxsi heyətə təhkim olunmuş silahların və döyüş texnikasının dərindən mənimsənilməsi, ideoloji işin və mənəvi-psixoloji hazırlıq səviyyəsinin, döyüş ruhunun, kollektiv arasında hərbi intizamın, döyüş yoldaşlığı, qardaşlıq və dostluq münasibətlərinin daha da möhkəmləndirilməsi, şəxsi heyətin bilik, bacarıq və peşəkarlığının inkişaf etdirilməsi, həmçinin qazanılan təcrübənin təbliği məqsədilə keçirilən müsabiqə birlik, birləşmə və hərbi hissələrdə bilavasitə təmas xəttində döyüş tapşırıqlarını yerinə yetirən döyüş növbətçi heyəti arasında mərhələlərlə və etaplarla keçirilib. Altı mərhələ, üç etapda baş tutan yarışın ilkin mərhələsi taqım daxilində manqalar arasında baş tutub. Sonuncu mərhələ isə Müdafiə Nazirliyi səviyyəsində birliklər üzrə qalib gələn manqalar arasında keçirilib.

Döyüş növbətçi heyətin fəaliyyəti Müdafiə Nazirliyinin zabitlərindən təşkil olunmuş komissiya üzvləri tərəfindən üç etap üzrə aparılıb. Birinci etapda səngərlərin müvafiq tələblər səviyyəsində hazırlanması və manqanın döyüş hazırlığı, qoşun xidmətinin və təhlükəsizliyin təmin edilməsi, mənəvi-psixoloji, maddi-məişət şəraitinin və sağlamlıq vəziyyətinin qiymətləndirilməsi aparılıb. İkinci etapda şəxsi heyətin nəzəri bilikləri - vəzifə borcları, silah və sursatlardan istifadə etmə qaydaları, "Basqın" və "Hücum" siqnallarının yerinə yetirilmə ardıcıllığı, manqanın hər bir üzvünün tutduğu vəzifəyə görə döyüş tapşırığı, manqanın silahlandırılmasında olan silah və sursatların taktiki-texniki xüsusiyyətləri, düşmən haqqında məlumatları və s. test yolu ilə sınağa çəkilib. Üçüncü etapda isə heyətin "Basqın" və "Hücum" vaxtı praktiki fəaliyyəti, özünə və yanında ağır yaralanan yoldaşına "ilkin tibbi yardım" göstərməsi və silahlardan istifadə etmə bacarığı, həmçinin manqa komandirinin döyüşü müxtəlif siqnallar ilə idarəetmə bacarığı yoxlanılıb.

**Leytenant**
**Mahmud MÖHBALIYEV,**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**Q.CAMALOVUNDUR**

# Pakistanın Hərbi Hava Qüvvələri Akademiyasının nümayəndə heyəti Azərbaycanda səfərdə olub



*Pakistan İslam Respublikası Hərbi Hava Qüvvələrinin Hərbi Akademiyasının qərargah kursunda təhsil alan Pakistan, Cənubi Afrika Respublikası, Oman və Çin Xalq Respublikası HHQ-nin yüksək rütbəli zabitlərindən ibarət nümayəndə heyəti ölkəmizdə səfərdə olub.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, tanışlıq səfəri çərçivəsində briqada generalı Məhəmməd Camal Ərşadın başçılıq etdiyi heyət Azərbaycan Hərbi Hava Qüvvələrinin bazası və Silahlı Qüvvələrin Hərbi Akademiyasını ziyarət edib, eləcə də aidiyyəti dövlət qurumları və təhsil müəssisələrində görüşlər keçiriblər.

# Azərbaycan və Rusiya Müdafiə nazirliklərinin ekspertləri arasında görüş keçirilib

*İyunun 16-da Azərbaycan Respublikası və Rusiya Federasiyası Müdafiə nazirliklərinin ekspertləri arasında "Hərbi qulluqçuların yaşayış sahəsi ilə təmin olunması üzrə təcrübə mübadiləsi" çərçivəsində işçi görüşü keçirilib.*



İşçi görüşün nümayəndələri əvvəlcə xalqımızın ümummilli lideri Heydər Əliyevin büstünü ziyarət edib, Ulu Öndərin həyat və fəaliyyətini əks etdirən fotostendlərlə tanış olublar.

Görüşdə xalqımızın ümummilli lideri Heydər Əliyevin və torpaqlarımızın suverenliyi, ərazi bütövlüyü uğrunda şəhid olan soydaşlarımızın xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət himni səsləndirilib.

Tədbiri giriş sözü ilə açan polkovnik Aydın Əyyubov qonaqları salamlayaraq, görüşün keçirilməsinin əhəmiyyətindən danışıb. Ordumuzun yaranma və formalaşma tarixinə diqqət çəkən natiq bildirib ki, hal-hazırda Azərbaycan Ordusunda hərbi qulluqçuların xidməti və daimi yaşayış sahələri ilə təminatı "Hərbi qulluqçuların statusu haqqında" Azərbaycan Respublikası Qanunu və Azərbaycan Respublikası Müdafiə nazirinin qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Silahlı Qüvvələrində xüsusi təyinatlı yaşayış sahəsi ilə təmin olunma qaydaları haqqında əsasnamə"-yə uyğun olaraq keçirilir. Zabit onu da qeyd edib ki, Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının sosial müdafiəsinin gücləndirilməsi tədbirləri barədə" fərmanı ilə Azərbaycan Respublikası Silahlı Qüvvələrində 1992-ci ildən 20 təqvim ili və daha çox qüsursuz xidmət etmiş hərbi qulluqçular dövlət vəsaiti hesabına daimi mənzillə təmin edilirlər."

Polkovnik Etibar Əliyev Azərbaycan Ordusunda hərbi xidmət keçən hərbi qulluqçuların sosial müdafiəsinin müasir standartlara uyğun olaraq təmin edildiyini, müasir tələblərə cavab verən yeni hərbi şəhərciklərin, xidməti evlərin, tibb müəssisələrinin tikilərək istifadəyə verildiyini görüş iştirakçılarının nəzərinə çatdırıb.

Rusiya Federasiyası Müdafiə Nazirliyinin ekspertləri də çıxış edərək onların hərbi qulluqçuların sosial müdafiəsi məsələlərindən söhbətlər açıblar.

Sonda Müdafiə Nazirliyinin rəhbərliyi adından qonaqlara qiymətli hədiyyələr təqdim edilib. Xatirə şəkli çəkdirilib.

**"Azərbaycan Ordusu"**

# "Eternity-2019" təliminin planlaşdırma konfransı keçirilib

Silahlı Qüvvələrin Hərb Oyunları Mərkəzində Azərbaycan, Türkiyə və Gürcüstan hərbi qulluqçularının iştirakı ilə "Eternity-2019" kompüter dəstəkli komanda-qərargah təliminin planlaşdırma konfransı keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, tədbirdə üç ölkənin müvafiq qurumlarının nümayəndələri regiondakı iqtisadi cəhətdən əhəmiyyətli layihələrin mühafizəsinin təşkilinə həsr olunan təlimə hazırlıq məsələlərini və qarşıda duran digər tapşırıqları müzakirə ediblər.



# Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin iclası keçirilib

İyunun 19-da Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, Milli Məclis sədrinin birinci müavini, komitənin sədri Ziyafət Əsgərov gündəliyə "Beynəlxalq Hərbi Tibb Komitəsinin Nizamnaməsi"nə qoşulmaq haqqında" qanun layihəsinin daxil olduğunu deyib. Bildirib ki, ötən əsrin 20-ci illərində, I Dünya müharibəsindən sonra təsis olunan bu qurum müxtəlif ölkələrin hərbi tibb xidmətləri arasında əməkdaşlıq əlaqələri yaratmaq məqsədi daşıyıb. Həm müharibə şəraitində, həm də sülh dövründə əməkdaşlıq vasitəsilə ölkələrin qarşılıqlı olaraq bir-birinin təcrübəsindən bəhrələnməsi vacib bilinib.

1920-ci ildə ABŞ Tibb Xidməti Zabitlər Assosiasiyasının toplantısında bu məsələnin nizamlanması təklif edilib. Belçika hökuməti konsepsiyanın praktiki inkişafını dəstəkləyib və 1921-ci ildə Brüsseldə 1-ci Beynəlxalq Hərbi Tibb və Əczaçılıq Konqresləri Daimi Komitəsinin əsası qoyulub. Müxtəlif illərdə adı fərqli olub. 1990-cı ildə Beynəlxalq Hərbi Tibb Komitəsi adlandırıldı.

Qeyd olunub ki, bu Nizamnamədə həmin komitənin vəzifələri, əməkdaşlığın formaları göstərilib və üzv dövlətlərin öhdəlikləri müəyyən olunub. Qanun layihəsi Azərbaycanın milli maraqlarına uyğundur.

Deputatlar qanun layihəsini yüksək qiymətləndiriblər.

Qanun layihəsi Milli Məclisin plenar iclasına tövsiyə olunub.

# Parisdə Azərbaycan nümayəndə heyətinin müxtəlif şirkət rəhbərləri ilə görüşlərində hərbi-texniki əməkdaşlıq məsələlərindən danışılıb

Fransa Kosmik Sənaye Assosiasiyasının himayədarlığı ilə iyunun 17-də "Paris Air Show-2019" sərgisi işə başlayıb. Hərbi təyinatlı aviasiya sahəsində dünyanın ən nüfuzlu sərgilərindən biri olan bu tədbirdə Müdafiə Sənayesi Nazirliyini (MSN) müşavir Fərrux Vəzirov təmsil edir.

MSN-in mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, sərgi çərçivəsində F.Vəzirov Fransanın "Nexter", "Thales", "CS Communication", "Lacroix" və Türkiyənin "TAİ" şirkətlərinin rəhbərləri ilə görüşüb. Görüşlərdə hərbi-texniki əməkdaşlığa dair məsələlər müzakirə edilib.

"Thales" şirkətinin rəhbərliyi ilə görüşdə Azərbaycanda və qonşu ölkələrdə bu şirkətin məhsullarına texniki xidmətin göstərilməsi və təmiri üzrə birgə regional servis mərkəzinin yaradılmasına dair məsələlər müzakirə edilib. Eyni zamanda, müxtəlif növ aşkaretmə və radiolokasiya sistemlərinin birgə istehsalının yaradılması istiqamətində danışıqlar aparılıb. Müzakirə edilən birgə layihələrin həyata keçirilməsi üçün növbəti addımların atılmasına dair razılıq əldə olunub.

Səfər çərçivəsində İtaliyanın "Leonardo" şirkətinin nümayəndələri ilə də görüş olub. Görüşdə iyunun əvvəlində şirkət rəhbərliyi ilə MSN-də birgə layihələrlə bağlı aparılan danışıqlar davam etdirilib. Bunlarla yanaşı, Avropada aviasiya sahəsində ən böyük transmilli şirkət olan "Airbus" ilə də danışıqlar aparılıb və aerokosmik sahədə layihələrin icra edilməsinə, o cümlədən növbəti mərhələlərdə müzakirələrin hər iki tərəfin ekspertlərinin iştirakı ilə Azərbaycanda aparılmasına dair razılıq əldə olunub.

Sərgi çərçivəsində Fransa Müdafiə Nazirliyinin beynəlxalq əməkdaşlıq idarəsinin rəisi Thomas Lorne ilə də görüş olub. Görüşdə iki ölkə arasında hərbi-texniki sahədə əməkdaşlığın yaradılması istiqamətində danışıqlar aparılıb.

Görüşlərdə F.Vəzirovu Fransanın Azərbaycandakı hərbi attaşesi, polkovnik-leytenant Danni Pit müşayiət edib.

"Paris Air Show-2019" sərgisi işini iyunun 23-dək davam etdirəcək.

Polkovniki-leytenant Məmmədov Kamil Nəsib oğluna verilmiş Əfqanıstan müharibəsi veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Yusubov Cümşüd Kazım oğluna verilmiş müharibə veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Daşdəmirov Qabil Ədil oğluna verilmiş müharibə veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

AZƏRBAYCAN ORDUSU

## İdman

# Azərbaycan Ordusunda yüngül atletika üzrə yarışlar keçirildi

*Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi döyüş hazırlığı planına uyğun olaraq, Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının arenasında Azərbaycan Ordusunda yüngül atletika üzrə yarışlar keçirildi. Yarışların açılış mərasimində ümummilli liderimiz Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin hərbi orkestrinin ifasında Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi. Mərasimdə Müdafiə Nazirliyinin nümayəndələri, Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının müəllim və tələbə heyəti iştirak etdilər.*





Müdafiə Nazirliyi Döyüş Hazırlığı və Hərbi Təhsil Baş İdarəsinin Döyüş Hazırlığı İdarəsinin Fiziki Hazırlıq və İdman şöbəsinin rəisi polkovnik Sadiq Paşayev yarış iştirakçılarını salamlayaraq idmançılara uğurlar arzuladı, layiqli idmançıların qalib gələcəyinə əmin olduğunu bildirdi. Müdafiə Nazirliyi rəhbərliyinin daim şəxsi heyətin fiziki hazırlığına diqqət yetirdiyini, onların inkişafı üçün lazımi tədbirlər həyata keçirdiyini vurğuladı.

- Hərbi qulluqçuların fiziki cəhətdən möhkəm, güclü olmaları onların döyüş ruhunu daha da artırır, - deyə şöbə rəisi bildirdi. - Yarışların keçirilməsində əsas məqsəd hərbi hissələrdə yüngül atletikanın daha da inkişaf etdirilməsi və bu idman növünün hərbi qulluqçular arasında geniş yayılmasını təbliğ etməkdir. Hərbçilərimizə xarakterik çeldlik, çeviklik və dözümlük kimi keyfiyyətlərin nümayiş olunduğu bu yarışlar olduqca əhəmiyyətlidir.

Polkovnik onu da vurğuladı ki, hərbi idmançılar döyüş hazırlığında, təlim mərkəzlərində göstərdikləri çevikliyi və peşəkarlığı ilə təkcə Azərbaycan Ordusunda keçirilən yarışlarda deyil, ölkə miqyasında, həmçinin beynəlxalq yarışlarda da yüksək nailiyyətlər əldə edirlər.

Beynəlxalq qaydalara uyğun olaraq keçirilən yarışda tərkibi 12 nəfərdən ibarət olmaqla 14 komanda iştirak etdi.

Birinciliyi Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasından təyin olunmuş hakimlər idarə etdi.

Reqlamentə əsasən, kişilər 100 və 3000 metrə qaçış, hündürlüyə və uzunluğa tullanma, estafet (4x400), qadınlar isə 100 və 1500 metrə qaçış, estafet (4x100) yarışlarında özlərini sınadılar.

Təntənəli açılış mərasimindən sonra hakimlər tərəfindən iştirakçılara qaçış qaydaları, düzgün tullanış mövqeyi, tullanış texnikasının əsasları haqqında ümumi məlumat verildi.

Gərgin idman mübarizəsi şəraitində keçən yarışda "Hərbi Hava Qüvvələri" komandasının atleti leytenant Nicat Nurəliyev birinciliyi əldən vermədi. "Bakı" komandasını təmsil edən əsgər Cavad Muradov ikinci yerə, leytenant Emin Nəsirov (HHQ) isə üçüncü yerə sahib oldular.

Bu məsafəyə yarışda qadın idmançılar da öz güclərini sınadılar. Əzmkarlığa görə kişi idmançılardan geri qalmayan qadınlar arasında 100 metr məsafəyə qaçışda "Şəmkir" komandasının idmançısı çavuş Ülkər Sadıqova bütün rəqiblərini qabaqlayaraq finişə birinci çatdı. Əsgər Aytən Hacıyeva ("Beyləqan") finişə ikinci çataraq gümüş medal qazandı. Hərbi Hava Qüvvələrinin atleti əsgər Günel Ağayarova isə üçüncü nəticə göstərdi.

Qadınlar həm də 1500 metr məsafədə yarışların medalları uğrunda mübarizə apardılar. Əsgər Pərvanə Heydərova (HHQ) bütün rəqiblərini qabaqlayaraq, finişə birinci çataraq komandasına vacib xallar qazandırdı. "Bakı" komandasından əsgər Kəbirə Süleymanova yarışın ikincisi kimi birinciliyin gümüş medalına layiq görüldü. Əsgər Məryəm Ziyadxanova (HHQ) bu mübarizədə üçüncü olaraq mükafatçılar sırasında öz yerini təmin etdi.

3000 metr məsafəyə qaçış üzrə kişilər arasında keçirilən yarışda finişə birinci "Şəmkir" komandasından çavuş Şükür Zeynalov çatdı. Cüzi fərqlə əsgər Elşən İbişov ("Beyləqan") ikinci, Heydər Əliyev adına AAHM komandasından kursant İbrahim Abdurrəhmanlı isə üçüncü oldu.

Yarışların uzunluğa tullanma mərhələsindən öncə hakim idmançılara qaydalar barədə ətraflı məlumat verərək qeyd etdi ki, tullanmalar üçün nəzərdə tutulan çökək qaçış cığırı bərabər səviyyədə qumla doldurulub. "Yarış iştirakçılarına üç cəhd etmək hüququ verilir. Bu cəhdlərdən nəticə olaraq ən yaxşısı hesaba alınacaq".

Yarış haqqında dəqiq məlumatlanan idmançılar sıra ilə öz məharətlərini nümayiş etdirdilər. Yekun nəticəyə əsasən, "HHQ" komandasını təmsil edən əsgər Elvin Qafarov bütün rəqiblərindən üstün ustalıq nümayiş etdirdi və yarışın qızıl medalçıları sırasına qatıldı. "AAHM" komandasından kursant Mirağa Əliyev ikinci pillədə qərarlaşdı, "Beyləqan" komandasından əsgər Elxan Ağazadə üçüncü pillədə bürünc medala layiq görüldü.

Hündürlüyə tullanma yarışında "Bərdə" komandasını təmsil edən gizir Samir Xəlilov artıq üçüncü ildir ki, qazandığı qalibiyyətini təsadüfi olmadığını bir daha sübut etdi. "Bərdə" komandasından kiçik çavuş Sərvər Şahverdiyev ikinci yerə layiq görüldü. "Beyləqan" komandasından baş leytenant Orxan Əhmədov üçüncü oldu.

İdman azərkeşləri tərəfindən keçirilən komanda xarakterli 4x400 metr məsafəyə estafet yarışları böyük çoşqu ilə izlənildi. İdmançılar ağ xətlərlə ayrılan qaçış cığırlarında "Diqqət!" komandasından sonra yerlərini tutdular. Bütün idmançıların qaçış məsafələrinin bərabər olması üçün onların start yerləri cığırların uzunluğuna uyğun olaraq qabağa çəkildi. Qaydalara əsasən cığırları dəyişmək olmazdı. İdmançılar təyin olunmuş məsafəni qaçaraq əlində tutduğu estafet çubuğunu komanda yoldaşına ötürür, idman çubuğunu alan idmançı isə yarışı davam etdirirdi.

Gərgin mübarizə şəratində keçən yarışların bu növündə "Şəmkir" komandasını təmsil edən dördlük finişə birinci çataraq fəxri kürsünün ən yüksək pilləsində yerlərini təmin etdilər. "Beyləqan" komandasının idmançıları gümüş medalla kifayətləndilər. "HHQ" komandası isə üçüncü yerə çıxdı.

Qadınların komanda xarakterli 4x100 metr məsafəyə estafet yarışlarında birinci yerə "HHQ" komandası, ikinci yerə "Şəmkir" komandası, üçüncü yerə isə "Beyləqan" komandası layiq görüldü.



Yekunda birinci qrupda ümumi komanda hesabında I yerə "HHQ" komandası, II yerə "Beyləqan" komandası, III yerə "AAHM" komandası, ikinci qrupda isə I yerə "TTM" komandası, II yerə "Kəşfiyyatçılar" komandası, III yerə isə "Mühəndislər" komandası layiq görüldülər.

Yarışların bağlanış mərasimində çıxış edən şöbə rəisi polkovnik Sadiq Paşayev qalib gələn komandaları və idmançıları təbrik etdi, onlara gələcək yarışlarda uğurlar arzuladı.

Yekunda birinci, ikinci və üçüncü yerləri tutan komanda və idmançılara kubok, medal və diplomlar təqdim edildi. Komanda hesabında göstərilən nəticələrə görə yarışların kuboku "HHQ" komandasına verildi.

Sonda xatirə şəkilləri çəkildi.

**Baş leytenant
Günay TAĞIYEVA,
"Azərbaycan Ordusu",
fotolar
Coşqun CƏFƏROVUNDUR**

**Baş redaktor**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
leytenant
Mahmud MÖHBALIYEV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 510
Nüsxə 3950